VEX Robotics ART

“Bayraq Yarışı”

**Ümumi izah:**

Bu yarışmada *VEX İQ* modulu üzrə standart *Clawbot* robotu olacaqdır. Eyni sahədə 2 rəqib robot bir-birləri ilə yarışaraq, bayrağın rənglərinə uyğun olan kubları sahənin sonundakı uyğun qutulara daşıyaraq yerləşdirməlidir. Yarışı ilk tamamlayan komanda qazanır və ümumi 1 oyun *üç rounddan* ibarətdir. Hər round maksimal150 xal dəyərindədir. Bu rəqəm yerinə düzgün yerləşdirilmiş 3 kubu təmsil edir, yəni hər kub 50 xal dəyərindədir. Robotları komandalar özləri hazırlayıb gətirməlidir və hər komandanın 1 robotu ola bilər. Ən sonda məlumatlar toplanacaq və 1-ci, 2-ci, 3-cü yerin sahibləri “AzeRobot” tərəfindən hədiyələndiriləcək.

**Yarış robotu:**

Adından da məlum olduğu kimi bu robot (Clawbot) önündəki pəncədən istifadə edərək, önündəki cisimləri tuta və harasa daşıya bilir, ancaq robotun bu pəncəsini düzgün idarə etmək olduqca çətindir. Belə ki, həm bu pəncənin qolu yuxarı və ya aşağı hərəkət edir, həm də pəncə özü açılıb bağlanaraq cisimləri sıxa bilir. Cismi tutduqdan sonra isə robot düzgün idarə olunaraq tələb olunan missiyanı sürətli şəkildə bitirməlidir.



**Sahə:**



Şəkildəki sahə şərtidir, kubların sayı və sahədəki maneələrin yeri dəyişdirilə bilər.

**Qaydalar:**

- *Komandada ən az 1, ən çox 3 nəfər yarışmacı ola bilər.*
- *Sahədə və robotlarda dəyişiklik etmək qadağandır.*
- *Yarışarkən bilərək rəqibin robotuna və ya sahəyə zərər verən yarışmacı yarışdan çıxarılacaq.*
- *Yarışda 3 round var və hər round maksimal 150 xal, hər kub da 50 xal dəyərindədir.*
- *2 komandadan birinci bayrağı tamamlayan maksimal 150 xal əldə edir və bu sırada digər yarışmacı neçə ədəd kubu düzgün yerləşdiribsə ona uyğun xal əldə edir.*
- *Yarışda 1 roundun maksimum müddəti 5 dq olacaq və bu vaxta qədər yarışı heç kəs tamamlaya bilməsə, xallar yerinə düzgün yerləşdirilmiş kubların sayına görə müəyyən olunacaq.*
- *Bayrağın rəngləri istənilən sıra ilə düzülə bilər, ancaq qutuların və oraya yerləşdirilən kubların rəngləri eyni olmalıdır.*
- *İştirakçı kubu rəqibin qutusuna səhvən yerləşdirərsə bu zaman hakim kubu sahəyə geri qoyacaq.*
- *Yarış zamanı yarışmacıların sahəyə daxil olmağı və ya robotlara toxunması qadağandır.*
- *Əgər komandada 1-dən çox yarışmacı varsa, robotu eyni yarışmacı ən çox 2 dəfə idarə edə bilər.*

*Yarış zamanı hər hansı qeyri-adi hal yaranarsa, qərar hakimlər tərəfindən veriləcək.*